***Vəli Hüseyn oğlu Əliyev,***
***Aidə Əkbər qızı Məmmədova***
*"Tunc və ilk dəmir dövrü arxeologiyası" şöbəsi*
E-mail: aid.58@mail.ru

# II KÜLTƏPƏ ŞƏHƏR QALADA MEMARLIĞIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ (2014-CÜ İL TƏDQİQATLARI)

**Açar sözlər:** İlkin qala şəhər, müdafiə qalası, narınqala, inşaat texnikası, əhəng daşı, çay daşları.

**Ключевые слова:** Защитная крепость, нарынгала, строительная техника, известняк, речная галька.

**Key words:** Protective fortress, naryngala, construction equipment, limestone, river pebble

Azərbaycanda erkən şəhər mədəniyyətinin tədqiqi üçün II Kültəpə abidəsi əvəzsiz elmi əhəmiyyət kəsb edir. Bu qədim şəhərin Narınqalasında aparılan 2014-cü il tədqiqatları – yeni arxeoloji qazıntılar şəhərin yaranma tarixini, iqtisadi, mədəni həyat tərzini dərindən araşdırmağa imkan verir. Son illərin arxeoloji qazıntıları Narınqalanın şimal və qərb qala divarını açmaq, burada qalatikmə memarlığının səciyyəvi xüsusiyyətlərini öyrənmək məqsədilə aparılır.

Orta tunc dövründə Kültəpə iqtisadi, mədəni cəhətdən daha sürətlə inkişaf etmiş və tezliklə şəhər kimi tanınmışdır. Bu qədim şəhər 10 hektara qədər ərazini əhatə etmişdir. Plan quruluşuna görə mərkəzi hissə Narınqala və onun ətrafındakı yaşayış sahəsindən ibarətdir.

Narınqala beşbucaqlı formaya malik möhtəşəm qala divarları ilə əhatələnmişdir. Divarların birləşən küncləri dördkünc bürclərlə daha da möhkəmləndirilmişdir.

Narınqala yüksək memarlıqla inşa edilmişdir. Bünövrə iri sal daşlarla qurulmuş, divarlar isə iri kvadrat şəkilli çiy kərpiclə tikilmişdir. Divarların hündürlüyü 6 m-dən artıqdır, qalınlığı 3 m-dir [2, s. 15].

Naxçıvanın bu mədəniyyət mərkəzi e.ə. XVIII-XVII əsrlərdə qonşu tayfa ittifaqlarının və yaxud qədim dövlətlərin güclü hücumlarına və dağıntılara məruz qalmışdır. E.ə. XVI-XV əsrlərdə şəhərdə həyat yenidən canlanmış, vaxtilə dağıdılmış şimal və qərb qala divarları bərpa olunmuşdur. II Kültəpənin e.ə. XXII-XIX əsrlərdə qonşu tayfaların və yadellilərin yürüşlərindən xilas edən, erkən qala divarının möhkəm daş bünövrə üzərində çiy kərpicdən tikilmiş hissəsi görünür tamam dağıdılmışdır. Odur ki, ilkin qala divarının bünövrə hissəsinə toxunulmamışdır. Əksinə ona xaricdən əlavə ikinci bünövrə qurulmuşdur. Bununla da şəhərin hücumlara məruz qalan şimal və qərb divarlarını daha davamlı etmək, gələcək yürüşlərin qarşısının alınmasını təmin etmək məqsədilə ikinci qala divarı bir qədər də keyfiyyətlə tikilmişdir. Bu yeni tikilmiş qala divarlarının möhkəmliyini təmin etmək məqsədilə xaricdən üç bərabər məsafədə dördkünc plana malik bürclər qurulmuşdur [4, s. 3-6].

Bu il (2014-cü il) Narınqalanın qərb və şimal qala divarlarının açılmamış hissələrində tədqiqat işləri aparıldı. Şimal qala divarı hər iki tərəfdə - həm xaric, həm də daxildən qazıntı işləri aparılaraq təmizləndi. Qala divarını inşa xüsusiyyətləri öyrənildi. Şimal qala divarından daxildə aparılan arxeoloji qazıntılar nəticəsində Narınqalanın ümumi planı bir qədər də dəqiqləşdirildi.

II Kültəpənin e.ə. III minilliyin sonu, e.ə. II minilliyin əvvəlində tikilmiş erkən Narınqalasının şimal qala bürcü qərb və şərq qala divarları qeyd olunduğu kimi dağıntıya məruz qaldıqdan sonra, şəhərdə həyat canlandığı dövrdə Narınqala yeni planda bərpa olunmuşdur. Qərb, şimal və şərq qala divarları erkən inşa olunmuş divarların istiqamətində, bir qədər daxildən tikilmişdir. Bunun üçün yeni bünövrələr qurulmuşdur. Şimal qala divarının şərq qurtaracağı əvvəlki divarın əyintili hissəsi yaxınlığında düzbucaqlı planda cənub istiqamətdə, düz planda inşa edilmişdir. Şimal

qala divarı üzrə aparılan qazıntı nəticəsində açılmış bünövrə qalığı bunu sübut etdi.

2013-cü ildə qazıntı işləri aparılmış geniş sahənin hər bir kvadratı nəzərdən keçirilib tökülmüş torpaqdan təmizləndi. Qazıntı sahəsi şimal və cənub istiqamətdə genişləndirildi.

Şimal qala bürcü ilə Narınqalaya giriş arasındakı şimal qala divarı qalıqlarını açmaq lazım idi. Bununla Narınqalanın ümumi planını dəqiqləşdirmək məqsədi qarşıya qoyuldu. Burada 15 m uzunluğunda şimal qala divarı hər iki tərəfdən – xaricdən və daxildən tökülmüş torpaqdan, çiy kərpic ovuntularından təmizlənməli idi. Qala divarının bünövrəsinə hörülmüş iri həcmli ağır bazalt və əhəng daşlarının bir qismi qala divarının daxilinə və xaricinə töküldüyündən, ilk növbədə onları öz yerlərinə qoymaqla divarın hörgü sistemini bərpa etməli olduq.

Şimal qala divarı II Kültəpənin erkən Narınqalasının memarlığı üçün səciyyəvi olan ənənə ilə inşa olunmuşdur. Divarın bünövrəsi bir neçə qat üst-üstə müxtəlif həcmli əhəng daşı və bazalt daşlardan hörülmüşdür. Alt cərgə isə dördkünc formaya salınmış iri həcmli əhəng daşları səliqə ilə düzülmüş, ondan üstdə üç cərgə isə orta və xırda həcmli bazalt daşlardan hörülmüşdür. Divarın yan cərgə hörgü daşları arasına bazalt daşlar müəyyən memarlıq qaydasında – üslubu ilə yerləşdirilmişdir. Bünövrənin daha da möhkəm olması üçün palçıq məhlulu ilə daşların arası doldurulmuşdur.

Şimal qala divarının üst hissəsi əsasən iri həcmli çiy kərpiclə tikilmişdir. Çiy kərpiclər uçurulub dağılma nəticəsində hər iki tərəfdən qala divarının ətrafına tökülmüşdür.

Şimal qala divarı hər iki tərəfdən bu töküntülərdən təmizləndi və divarın memarlıq xətti, planı tam müəyyənləşdirildi. Müəyyən olundu ki, şimal qala divarının əyinti hissəsi və şimal bürcü də yenidən bərpa olunaraq ikiqat müdafiə səddi yaradılmışdır.

Tədqiqat işləri şimal qala divarı boyunca davam etdirildi. Qala divarından daxildə mədəni təbəqə tədricən qazılaraq bünövrəyə qədər davam etdirildi. Şimal qala divarının daxildən görünüşünü aydın təsəvvür etmək üçün divar boyu sahənin 3-4 m enində qazılması planlaşdırıldı. Bu sahə şimal qala divarının qövsvari əyintili hissəsinə qədər müəyyənləşdirildi.

Ümumilikdə bu qazıntı 15x3 m (45 kv m) sahəni əhatə edir. Şimal qala divarı 15 m uzunluğunda izləndi. Mədəni təbəqə qala divarının alt cərgə hörgü daşları açılana qədər qazıldı. Bu laydan daş əmək alətlərinin parçaları (üst dən daşları, daş gürzlər), boz, qara, çəhrayı rəngli gil qabların qırıqları, xırda və iribuynuzlu heyvan sümükləri aşkar edildi.

Şimal qala divarı boyunca qazıntı 0,5 m dərinliyə çatdırıldı. Qazıntılardan iribuynuzlu heyvan sümükləri və keramika məmulatı qırıqları aşkar edildi. Əsasən mətbəx qablarından ibarət olan keramika məmulatlarının gilinin tərkibinə narın qum qatılmışdır. Tək-tək qab qırıqları üzərində cızma və çərtmə naxışlar vurulmuşdur. 2013-cü ildə açılmış daşişləmə emalatxanasının yerində də müəyyən işlər görüldü. Oradan dən daşları, daş gürz, daş dişəkləmə əmək alətləri, boz, qara, çəhrayı rəngli keramikanın qırıqları aşkar edildi. Qazıntının ümumi sahəsi cənuba doğru, qərb qala divarı boyunca genişləndirildi. I kvadratda açılmış yaşayış evinin bünövrəsi hər tərəfdən təmizləndi. Mədəni təbəqə burada bir lay təmizləndi və daş əmək alətləri, keramika və sümük məmulatı əldə olundu.

Qərb qala divarı 15 m uzunluğunda əvvəlki memarlıq planında möhkəmləndirildi. Qərb qala divarından daxildə mədəni təbəqə bir lay götürüldü. Son tunc dövrünə aid bir lay götürüldü. Son tunc dövrünə aid küpə, qazan, çölmək, kasa tipli qabların qırıqları və daş əmək alətləri (dən daşı, sürtgəclər, həvəng və dəstə) əldə olundu.

Yeni açılmış kvadratda (1”A”) qazıntı işləri davam etdirildi. Mədəni təbəqə 60 sm dərinliyə qədər tədqiq olundu. Orta tunc dövrünün son inkişaf mərhələsinə aid mədəni lay öyrənildi. Qazıntıdan sadə keramika və heyvan sümükləri, daş alətlər əldə olundu.

Ümumiyyətlə bu qala divarından daxildə və xaricdə aparılan arxeoloji tədqiqatlar II Kültəpə yaşayış yerində qalatikmə memarlığının xüsusiyyətlərini öyrənməyə imkan verir və Naxçıvan ərazisində mövcud olan tunc dövrü qala şəhərlərin müdafiə sisteminin

tədqiqində elmi əhəmiyyət daşıyır.

Qədim Naxçıvanın Narınqalasının planı, onun dördkünc bürclərlə möhkəmləndirilməsi və mükəmməl tikinti texnikası e.ə. II minilliyin əvvəllərində Naxçıvanda, eləcə də Azərbaycanda memarlıq sənətinin yüksək inkişaf etdiyini göstərir. Arxeoloji tədqiqatlardan məlumdur ki, bəşər tarixində möhtəşəm şəhər qalaları ilk dəfə tunc dövründə Şərq ölkələrinin əsas mədəniyyət mərkəzlərində meydana gəlmişdir.

Naxçıvanın tunc dövrü tayfaları yaxın qonşuları – urmiyalılar, şumerlər və xetlərlə daim iqtisadi, mədəni əlaqə şəraitdə yaşamışlar. Bu mədəni münasibətlər nəticəsində Qədim Şərq dünyası sivilizasiyası üçün səciyyəvi olan erkən şəhər memarlıq mədəniyyətinin incəlikləri Naxçıvan ustaları tərəfindən mənimsənilmişdir. II Kültəpənin Narınqalasında aparılmış arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış tikinti qalıqlarında qədim Naxçıvan memarlıq mədəniyyətinin təkamülü və səciyyəvi xüsusiyyətləri yaxşı izlənir [2, s. 15-18].

Naxçıvanda qalatikmə memarlığının e.ə. II minilliyin əvvəllərində meydana gəlməsi ilk dəfə II Kültəpədə qədim şəhər mədəniyyətinin yaranması ilə bağlıdır. İlkin sivilizasiyasının çox mühüm mədəniyyət atributu üçün səciyyəvi sayılan qalatikmə memarlığının məhz II Kültəpədə yaranması heç də təsadüfi deyil, çünki II Kültəpə əhalisinin sosial-iqtisadi həyatındakı yeni inkişaf mərhələsi təkamül prosesinin yeni göstəricisi kimi ilkin şəhər sivilizasiyasının yaranmasına zəmin yaratdı [3, s. 162].

E.ə. II minilliklərə aid qədim şəhərlər Misirdə, Fələstində, Mesopotamiya, Anadolu, Pakistan, Mərkəzi Asiyada öyrənilmişdir. Fələstinin e.ə. III minilliyə aid olan İyerixon şəhəri 1 m qalınlığında qala divarı ilə əhatələnmişdir. Divar daş bünövrə üzərində çiy kərpiclə tikilmiş, bir neçə yerdə düzbucaqlı və yarım dairəvi bürclərlə daha da möhkəmləndirilmişdir. Mesopotamiyanın Ur şəhərinin (e.ə. III minillikdən VI əsrədək) dini inzibati mərkəzi qala divarları ilə əhatələnmiş, dördkünc bürclərlə möhkəmləndirilmişdir. Urun bürclərinin də bir qismi qala divarlarının əyilən hissəsində tikilmişdir. Xet şəhəri Karxemışın (e.ə. XX-VII əsrlər) möhtəşəm qala divarları daş bünövrə üzərində çiy kərpiclə tikilmişdir. Qala qapısı iki yandan bürclərlə möhkəmləndirilmişdir.

II Kültəpə (Qədim Naxçıvan), eləcə də Oğlanqala, Çalxanqala və Govurqala müdafiə sistemləri analoji cəhətdən Xet şəhərlərinin müdafiə tikililəri ilə daha çox yaxınlıq təşkil edir. Qədim Naxçıvan abidələrinin Yaxın Şərq ölkələri şəhərlərinin memarlıq planlarının, tikinti texnikasında oxşarlığın izlənməsi qanuna uyğun hal hesab edilə bilər. E.ə. III-II minilliklərdə Cənubi Qafqazın, xüsusilə onun cənub ərazilərinin qədim Şərq ölkələri ilə geniş mədəni əlaqələri olmuşdur.

Qədim Şərq ölkələri arasında olan iqtisadi-mədəni əlaqələr nəticəsində memarlıq sənətinin bir sıra xüsusiyyətləri bir ərazidən digərinə keçə bilmişdir [1, s. 50-52].

2014-cü ildə II Kültəpə yaşayış yerində aparılan qazıntılar və həyata keçirilən bərpa işləri onu söyləməyə əsas verir ki, yaşayış yerini möhtəşəm qala divarları əhatə edir. İnşa olunan bürclər müdafiə səddini tamamlayaraq onu daha da möhkəmləndirir. Müdafiə divarının inşasında iri və ağır qaya daşlarından, eləcə də orta və xırda həcmli çay daşlarından istifadə olunmuşdur. Bərkidici material olaraq palçıqdan deyil, gəcəoxşar daha möhkəm materialdan istifadə olunmuşdur [5, s. 90]. Müdafiə qalasının möhtəşəm divarlarına bitişik (bir divar müdafiə qalasının divarı seçilmişdir), iri sahəli emalatxanalar (dulusçuluq) və ona yaxın sahədə daşişləmə (əmək alətlərinin hazırlandığı) emalatxanası və hər iki emalatxanalar yanında, aralarında keçid yerləri olan kiçik sahəli otaqlar açıldı. Çox güman ki, bu otaqlar yaşayış üçün olmuşdur. Çünki onlardan birindən təsərrüfat alətləri (eləcə də 3 sayda səliqəli şəkildə işlənmiş oraq dişləri) əldə olunmuşdur.

2014-cü ildə aparılmış arxeoloji tədqiqatların nəticələri bir daha onu söyləməyə əsas verir ki, II Kültəpə yaşayış yerində memarlıq sənətinin özünəməxsus inkişaf xüsusiyyətləri olmuşdur. Burada tikinti materiallarının zənginliyi şəhər memarlığının inkişafına təkan vermişdir. Bu Narınqalanı inşa

edən ustalar müdafiə qalasının planlı şəkildə qurulmasına, tikinti texnikasına əməl edərək onun hücumlara davamlı olmasına, inşaat materiallarının seçilməsinə xüsusi diqqət yetirmişlər. Narınqalanın bu günümüzə qədər salamat qalan divar və bürc qalıqları bunu bir daha təsdiq edir.

Bürcün bünövrəsinin qurulması üçün müxtəlif ölçülü çay daşlarından – bazaltdan istifadə olunmuşdur. Bünövrənin yan daşları iri həcmli olub uzununa, yan-yana çox yaxşı düşünülmüş hörgü qaydasında yerləşdirilmişdir. Yan hörgü daşları arasında qalan boşluğa orta və xırda həcmli daşlar xüsusi memarlıq üsulunda yerləşdirilmişdir. Bu daşların bir-birinə möhkəm bağlanması bünövrənin möhkəmliyini tam təmin etmişdir. Bünövrənin üzərindən əhəng cinsli hər tərəfdən yaxşı qəlpələnmiş iri kvadrat hörgü daşları yerləşdirilmişdir.

Tunc dövründə qədim Naxçıvan sənətkarlarının yaratdığı belə möhtəşəm, keyfiyyətli memarlıq üslubu antik və orta əsrlər dövründə ənənəvi olaraq davam etdirilmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev Vəli. Qədim Naxçıvan. «Elm» n. Bakı 1979
2. Əliyev Vəli. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. XXI-YNE. 2002
3. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpə yaşayış yerində tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı 2013
4. V.H.Əliyev, A.Ə.Məmmədov. II Kültəpə şəhər yerində memarlığın inkişaf xüsusiyyətləri Azərbaycanda 2013-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl-tədqiqatlarının yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı 2014.
5. O.Həbibullayev. Kültəpədə arxeoloji qazıntılar. EA Nəşriyyatı. Bakı 1959.

***Вали Гусейн оглы Алиев,***
***Аида Акбар кызы Мамедова***

## II KÜLTƏPƏ ŞƏHƏR QALADA MEMARLIĞIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ (2014-CÜ İL TƏDQİQATLARI)

### *РЕЗЮМЕ*

Статья посвящена исследовательским работам, проведенным в северо-западной части оборонительных стен на поселении Кюльтепе II в культурном слое относящихся эпохе бронзы. В статье нашли отражение исследования мастерской, выявленной археологическими раскопками на поселении.

Образцы материальной культуры играют важную роль в изучении материальной культуры в эпоху поздней бронзы и раннего железа Азербайджана.

***Veli Quseyn oqlu Aliyev,***
***Aida Akbar gizi Mamedova***

## THE SPECİALİTİES OF ARCHİTECTURE PROGRESSİON İN 11 KULTAPA (İNVESTİGATİONS OF 2014)

### *SUMMARY*

The article deals with the research work carried out in II Kultapa settlement mainly in its Naringala city and in cultural layer which is located outside the north-west fortress walls and dates back to late Bronze Ages.

Artifacts found from too late Bronze and early Iron Ages monuments of Azerbaijan take an important place in the exploration of the trade history.